AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ İNSTİTUTU

*Əlyazması hüququnda*

ANAR HÜMBƏT OĞLU FƏRMAYILOV

# AZƏRBAYCAN CƏMİYYƏTİNİN SOSİAL RİFAH HALININ YÜKSƏLDİLMƏSİNDƏ TURİZMİN ROLU

**İxtisas: 630701– Sosial dəyişiklik və inkişaf**

**Sosiologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2018**

Dissertasiya Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Fəlsəfə üzrə elmlər doktoru
**Ağayeva Ziba Bahadır qızı**

**Rəsmi opponentlər:** Sosiologiya üzrə elmlər doktoru, professor
**Hüseyn Tapdıq oğlu Qaraşov**

Sosiologiya üzrə fəlsəfə doktoru
**Vüsal Elşad oğlu Abdullayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə " ___ " ________ 2018-ci ildə saat ____-da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H. Cavid prospekti 115, AMEA-nın Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"__________ 2018-ci ildə göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **S. A. Həsənova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə demokratik idarəetmənin və sosial-iqtisadi inkişafın yüksək olduğu ölkələrdə cəmiyyətin sosial rifah halının yaxşılaşdırılması dövlətin qarşısında duran başlıca məsələlərdən biridir. Cəmiyyətin sosial rifah halının yüksəldilməsi müxtəlif yollarla həyata keçirilir. Belə yollardan biri də turizm sahəsinin inkişaf etdirilməsidir. Dünya turizm industriyasında önəmli yer tutan bir çox ölkələrdə cəmiyyətin sosial rifah halının yüksəldilməsinin başlıca gəlir sahəsi turizm sektorudur. Turizm sahəsi həm milli iqtisadiyyatın inkişafına, həm insanlararası qarşılıqlı əlaqə və münasibətlərin formalaşmasına təsir göstərən sosial institut kimi fəaliyyət göstərir, həm də cəmiyyətin sosial rifah halının yüksəldilməsində əsas iqtisadi göstəricilərdən birinə çevrilməkdədir.

Müstəqil Azərbaycan dövlətinin başlıca məqsədlərindən biri də cəmiyyətin sosial rifah halının yüksəldilməsinə nail olmaqdır. Hal-hazırda cəmiyyətin sosial rifah halının yüksəldilməsində kifayət qədər uğurlar əldə edilmişdir. Xalqımızın maddi həyat səviyyəsinin yüksəldilməsini qarşıya başlıca məqsəd kimi qoyan Prezident İlham Əliyevin ifadəsilə desək: "Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl yaşasınlar, rifah içində yaşasınlar".[1]

Azərbaycan dövləti cəmiyyətin sosial rifah halını yüksəltməklə dünyanın inkişaf etmiş rifah dövlətləri sırasına daxil olmaqdadır. İqtisadi inkişafın və yüksək rifah halının əldə edilməsində turizm sahəsinin də payı vardır. Buna görə də turizmin inkişaf etdirilməsi dövlətin başlıca prioritet istiqamətlərindən biridir.

Ölkəmizin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Dövlətimizin başçısı bu məsələni şərh edərək demişdir: "Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Qeyri-neft

[1] Bahadur İmanquliyev. "Turizmin inkişaf etdirilməsinin aktuallığı daha da artıb" http://www.azerbaijan-news.az/index.php?mod=3&id=66365

sektorunun inkişafı ilə bağlı olan bu istiqamət bizim üçün çox önəmlidir"[2]

Turizm sahəsinin inkişafı əhalinin məşğulluq və asudə vaxtının düzgün təşkil edilməsinə, sosial-mədəni infrastrukturunun inkişafına, milli mədəniyyətin, milli-mədəni dəyərlərin, adət-ənənələrin, tarixi-mədəniyyət abidələrinin qorunub saxlanılmasına, qloballaşan dünyada xalqlar arasında əlaqə və münasibətlərin formalaşmasına imkanlar açır.

Bu baxımdan Azərbaycan cəmiyyətinin sosial rifah halının yüksəldilməsində turizmin rolunun sosioloji aspektdə sistemli, əhatəli və dərindən araşdırılması dövrün tələbidir.

Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- Cəmiyyətin rifah halının yüksəldilməsində turizmin rolunun, funksiyalarının, onun cəmiyyətin sosial, iqtisadi, mənəvi və mədəni sahələri ilə qarşılıqlı əlaqəsinin və təsirlərinin, eləcə də vətəndaş cəmiyyətinin təşəkkülündə sosial rifahın və turizmin inkişaf meyllərinin sosioloji aspektdən öyrənilməsi müasir dövrdə elmi ictimaiyyət qarşısında duran əsas məsələlərdəndir;
- cəmiyyətin rifah halının yüksəldilməsində turizmin rolu mövzusunun seçilməsinin aktuallığı, bir tərəfdən müasir dövrün çağırışları və qlobal inkişaf meylləri ilə şərtlənirsə, digər tərəfdən, Azərbaycanın dövrün tələb və çağırışlarına cavab verən sosial yüksəliş templəri və cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinin əlaqəli öyrənilməsi ilə şərtlənir;
- Hazırda dünyada baş verən qlobal sosial-mədəni transformasiyalar dövlətlərin və cəmiyyətlərin inkişaf proseslərinə nüfuz edərək rifah halının artmasına təsir edən amillərə çevrilir. Turizm sahəsinin sosial rifahla qarşılıqlı əlaqəsinin elmi araşdırılması ilə yanaşı, həm də dünya təcrübəsinin yaradıcı və tənqidi şəkildə nəzərə almaqla tətbiqini nəzərdə tutur;
- Azərbaycanda turizmin inkişafı nümunəsində xalqın həyat səviyyəsinin, rifah halının yüksəldilməsi və davamlı inkişafının sosioloji aspektdən tədqiqini aktuallaşdırır;
- Cəmiyyətin həyat tərzinin, rifah halının yüksəldilməsinin turizm sahəsi ilə qarşılıqlı əlaqəsinin öyrənilməsi sosiologiya elminin problem sahələrindən biridir. Dövlətin sosial siyasətinin, cəmiyyətdə sosial rifah və ədalətin, sabitliyin və vətəndaş sülhünün bərqarar edilməsində

[2] M. Mükərrəmoğlu. 2013-cü il mədəniyyət və turizm sahəsinin inkişafında yeni mərhələ oldu. “Xalq qəzeti” 11 yanvar 2014-cü il, s.3

turizmin əhəmiyyətinin üzə çıxarılması, məsələnin sosioloji aspektdə təhlilinə sosial ehtiyac yaratmaqla yanaşı, həm də elmi sifarişin zəruriliyini ortaya çıxarır;

- Hər bir ölkədə turizmin yüksəlişinin əsası- dövlətin iqtisadi potensialı, sosial yönümlü inkişaf strategiyasının həyata keçirilməsi və qeyri-neft sektorunun səmərəli inkişaf mənbəyinə çevrilməsi ilə bağlıdır. Davamlı iqtisadi irəliləyiş, ölkənin resurs potensialı və mövcud qüvvələrin turizm dövriyyəsinə cəlb edilməsi bu sahədə ilk sırada duran məsələlərdəndir. Ölkənin mövcud iqtisadi imkanlarının qeyri-neft sektoruna və turizmə transformasiyası, turizmin sosial infrastrukturun tərkib hissəsinə çevrilməsi, bu sahəyə xas inkişaf xüsusiyyətləri ilə bağlıdır. Azərbaycanda qeyr-neft sektorunun hazırkı mərhələdə milli inkişaf üçün taleyüklü əhəmiyyətə malik olması, həmin sahənin tərkib hissəsi kimi turizmin sosial cəhətdən öyrənilməsi zərurətini yaradır;

- Qloballaşan dünyada turizmin strateji əhəmiyyətli sahə kimi nəzərdən keçirilməsi onun təkcə iqtisadi fəaliyyət növü olması ilə şərtlənmir. Müasir dövrdə turizmin inkişafı həm də beynəlxalq-geosiyasi mahiyyət daşımaqla hər bir dövlətin beynəlxalq arenada təmsilçiliyini, özünütəsdiqini sürətləndirmək, coğrafi resurslarını, mövcud imkanlarını, mədəniyyətini təbliğ etmək, tanıtmaq vasitəsinə çevrilmişdir. Azərbaycan reallıqlarının, dünyada ən tolerant məkan kimi tarixi ənənələrimizin təbliği, xalqımızın tarixən malik olduğu qonaqpərvərlik xüsusiyyətinin daha dərindən aşkarlanaraq çatdırılması turizmin sosioloji konsepsiyasının formalaşmasını tələb edir;

- Cənubi Qafqazda yaşayan xalqların sülh və əmin-amanlığına ən böyük təhlükə olan Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal altında qalan torpaqlarımızda dünya mədəni irs siyahısında yer alan mədəni-tarixi abidələrimizin məhv edilməsi, münaqişə ocaqlarının sabitliyi pozaraq insanların asayiş içində yaşamaq hüquqularının pozulmasına, onların tezliklə həllinə diqqətin cəlb edilməsi, və s. məsələlər-turizm siyasətinin kompleks, nəzəri-konseptual yanaşmaqla həyata keçirilməsinə ehtiyac yaradır;

- Ümumbəşəri humanizm, xoş məram və birgəyaşayış fəlsəfəsi nəticəsində turizm sivilizasiyalar və mədəniyyətlərarası dialoq və anlaşmanın nüfuzlu kanallarından birinə çevrilmişdir. İstənilən turist dövlətlərarası münasibətlərin çərçivəsində hərəkət edir və bu zaman o həmçinin konkret xalqın, ölkənin nümayəndəsi kimi çıxış edir, konkret mədəniyyətin, dünyagörüşün və dəyərlərin daşıyıcısı kimi qəbul edilir. Bu baxımdan, turizmin sosioloji səciyyəsi insan varlığının mənəvi

dünyasına nüfuz edən, şəxslərarası münasibətlər və ictimai mühit kimi amillərlə bilavasitə bağlı olması, onun sosiallaşma funksiyalarının tədqiqi və cəmiyyətin rifah halının yüksəldilməsində müsbət xüsusiyyətlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir;

- Ölkəsini olduğu kimi tanıtmaq, onun uğurlarını dünyada təbliğ etmək hər bir vətəndaşın borcudur. Eyni zamanda, bu cəmiyyətdə mövcud olan bütün ictimai -iqtisadi, siyasi, mədəni, təhsil, diplomatiya, elm və incəsənət institutlarının da bilavasitə vəzifəsidir. Əsas olan odur ki,bu sahədə mövcud olan niyyət və fəaliyyətin uğurlu nəticələr verməsi üçün təşviqat işi elmi-nəzəri əsaslara, turizmin strategiyasına, ümumililkdə dövlətçilik fəlsəfəsinə söykənməlidir;

- Qloballaşma müasir dünya inkişafının başlıca meyli kimi, bir çox ölkələri ciddi çağırışlarla üz-üzə qoymuşdur. Onların düzgün cavablandırılması Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin, ilk növbədə isə elmi ictimaiyyətin vəzifəsidir. Turizm sahəsinin dünyadakı inkişaf səviyyəsinə və standartlarına, qabaqcıl təcrübəyə uyğun inkişf etdirilməsi, onun yeni formalaşan sosioloji konsepsiyalarının ölkədə turizm sektorunun tərəqqisinə elmi əsaslara söykənən təkliflər verməsi də bu vəzifələr sırasında ilk yerlərdə durur;

- İnsanlar öz şəxsi və ictimai həyatında yalnız yüksək maddi və mənəvi səviyyəyə nail olduğu vaxtda istirahət barədə düşünür, turist səfərlərinə çıxır, bu və ya digər formada istirahət və əyləncənin əsas iştirakçısı qismində çıxış edirlər. Bu baxımdan turizm və sosial rifahın inkişafı bir-biri ilə sıx bağlılıq təşkil edir. Yalnız sabit və inkişaf edən ölkələrdə turizmin inkişafı dövlət siyasətinin mütərəqqi dinamikası kimi özünü biruzə verir. Azərbaycan dövlətinin müstəqillik illərində davamlı inkişaf dinamikası, xalqın rifah göstəriciləri turizmin inkişafında da bilavasitə əksini tapmışdır;

- Problemin aktuallığı həm də onunla bağlıdır ki, XXI əsrin əvvəllərində Azərbaycanın dünyaya tanıdılmasında yeni mərhələnin başlaması həm də onun yeni sosioloji konsepsiyasını tələb edir. Bu isə, müxtəlif sosial institutların və turizmi araşdıran müxtəlif elm sahələrinin bu istiqamətdə birgə əlaqələndirilmiş fəaliyyətinin həyata keçirilməsini zəruri edir. Sosioloji yanaşma turizmə bir fenomen kimi kompleks nəzər salmağa, onun inkişaf və perspektivlərinin vahid mənzərəsini göz önündə canlandırmağa imkan verir.

Göründüyü kimi, bu gün turizm fenomenini sosial rifah mövzusundan və iqtisadi inkişaf proseslərindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Turizmin inkişafı-əslində dolayısı ilə cəmiyyətin hər

bir üzvünün öz həyatını mədəni təşkil etmək və vətəndaşı olduğu dövlətin dünyaya tanıdılması yönündə fəaliyyət forması kimi nəzərə çarpır.

Qeyd edilən səbəblər tədqiqat mövzusu kimi Azərbaycan cəmiyyətinin rifah halının yüksəldilməsində turizmin inkişafının sosioloji aspektlərinin araşdırılmasını aktual edən məsələlərdəndir.

**Problemin işlənmə dərəcəsi.** Müasir dövrün aktual məsələlərindən biri olduğu üçün turizm və cəmiyyətin rifah halının yüksəldilməsi mövzusunda müxtəlif aspektlərdə, həm Qərb-Avropa, həm Rusiya, Türkiyə, həm də yerli müəlliflərin araşdırmaları mövcuddur.

Qərb müəllifləri turizmin tətbiqi-kulturoloji, sosial-iqisadi, hüquqi, texnoloji kontekstdə təhlil edən əsərlərində bu sahənin müvafiq problemlərini araşdırmışlar. Onların sırasında- F.V.Teobald "Qlobal turizm", N.Leyper "Turizmin etimologiyası", A.Bever "Səyahət lüğəti və turizm terminologiyası", L.K.Sinqxh "Turizm sənayesi ilə bağlı problemlər", A.A.Lyu "Turizm məhsullarının sonsuz sırası: turizmin çoxsaylı məhsullarının marketinqi üçün yeni coğrafiyalar", S.Karanasios və S.Burges "Turizmin İnternetdən bəhrələnməsi: inkişaf etməkdə olan ölkələrin perspektivləri" , J.Ritçie, A.M.Brent, M.F.Carlos, C.Duglas "İqtisadi böhranın turizmə təsiri: Şimali Amerika", J.Arri "Sosial şəbəkə, səyahət və ünsiyyət", S.Heminquey "Cənub Şərqi Asiyada qadınların insan hüquqlarına turizmin təsiri", M.Xan "Turizmin inkişafı və asılılıq nəzəriyyəsi", M. Korstanje "Turizmin mənşəyi və mahiyyəti", həmmüəlliflər J.Lu və Z.Lunun "Çində online turizm xidmətlərinin inkişafı, müəyyənləşdirilməsi və qiymətləndirilməsi", R.Vurzburger "Yaradıcı turizm" [3] və s. mövzular üzrə tədqiqatlar aparmışlar.

---

[3] "UNWTO technical manual: Collection of Tourism Expenditure Statistics".World Tourism Organization. 1995. p.10. Retrieved 26 March 2009, Lew A.A. "Long Tail Tourism: New geographies for marketing niche tourism products" (PDF). Journal of Travel & Tourism Marketing 25 (3-4): 409–41. 2008, Brundtland G. H. Our Common Future. Oxford: Oxford University Press, 1987. 264 p., Smith M. Issues in Cultural Tourism Studies. L. - New York: Routledge Taylor & Francis Group, 2003, "Long-term Prospects: Tourism 2020 Vision". World Tourism. 2004, Khan M.M. Tourism development and dependency theory, Annals of Tourism Research, Vol.24, No.1, 1997.342 p, Singh, L. K. "Issues in Tourism Industry". Fundamental of Tourism and Travel. Delhi: Isha Books. 2008, Wurzburger R. Creative Tourism: A Global Conversation: How to Provide Unique Creative Experiences for Travelers Worldwide: As Presented at the 2008, Korstanje M. The

Turizm problemi MDB məkanı və Rusiya müəlliflərinin əsərlərində -qloballaşma və regional, külturoloji, coğrafi, marketinq,beynəlxalq turizm, informasiya texnologiyaları ilə bağlılıqda, həmçinin insanın fərdi həyatında turizmin antropoloji xüsusiyyətləri və s.aspektlərdə araşdırmaların mövzusu olmuşdur. Onların sırasında- E.Artyomovanın “Turizmin irəliləyişi və inkişafı sahəsində beynəlxalq idarəetmə təcrübəsi”, A.V.Babkinin “Turizmin xüsusi formaları”, V.Balaşovun “Moskva əyalətində qastronomik turizmin inkişafı”, İ.Barsukovun “Turizmdə elmi araşdırma metodları”, E.Vavilovanın “Beynəlxalq turizmin əsasları”, V.Voronkovanın “Qloballaşma və kross-mədəni kommunikasiyalar şəraitində turizmin sosial və mədəni fenomen kimi inkişafı”, A.Qluşko və A.Sazıkinin “Turizmin coğrafiyası”, N.Qrdzelişvilinin “Turizm Avrasiya məkanında inteqrasiya proseslərinin sürətləndirilməsi amili kimi”, E.İlyinanın “Turopereytinq: fəaliyyətin təşkilatlandırılması” , E.Zaliznyakın “Regional turizm: əsas inkişaf əlamətləri və şərtləri” V.Korolyovanın “Bazar iqtisadiyyatı şəraitində rekreasion ərazilərdə turizmin inkişaf istiqamətlərinin modelləşdirilməsinin konseptual əsasları”, A.Novoqorodsevanın “Xarici və yerli təcrübədə turizm nəzəriyyəsinin formalaşması”, V.Şarafutdinovun “Turizm nəzəriyyəsinin obyektinin problemləri haqqında” , L.Axmadulinanın “Mədəni turizmin inkişafında informasiya təminatının rolu”, A.Aleksandrovanın “Beynəlxalq turizm”, A.Qalizdranın “Turizm fenomeni: tədqiqat metodologiyası”, L.Karpova “Turizm sosial mədəni fenomen kimi”, S.Kuznetsov “Sosial turizm sosial dövlətin fenomeni kimi”, A.Kuskov “Turizmin əsasları”, S.Maseberanın “Turizmdə informasiya texnologiyaları”, D.Mixiyevanın “Turizmdə informasiya texnologiyaları”, V.Pazenok “Turizm fenomeni: “insan meyarı”, T.Parxomenko “Turizmin antropologiyası”, L.Pryadkina və V.Repsin “Turizmin kommunikativ funksiyası: sosial mədəni aspekt”, Y.Putrik “Dövlətin sosial siyasəti və 1992 – 2013-cü illərdə onun turizm sahəsində tətbiqi, E.Raxuba “Turizmin sosial mədəni mahiyyəti”, S.F.Solyanikin “Turizmdə sosial mədəni

---

Origin and meaning of Tourism: Etymological study. E Review of Tourism Research. Vol 5 (5): 100-108. Texas A&M University, US, 2007, Leiper N. An Etymology of Tourism. Annals of Tourism Research (2). New York: Pergamon Press. Volume 10, 1983, Meadows D., Meadows D., Zahn E., Milling P. Die Grenzen des Wachsums: Bericht des Club of Rome zur Lage der Menschheit. Ulm: Franz Spiegel Buch GmbH, 1972, 123."UNWTO World Tourism Barometer Interim Update" (PDF). UNWTO World Tourism Barometer (World Tourism Organization). August 2010. Retrieved 17 November 2011

komunikasiyalar", V.Fedorçenko "Turizm və xalq diplomatiyası" və "Turizmologiya bir elm kimi", A.D.Çudnovskinin "Turizmdə idarəetmənin informasiya texnologiyaları", T.İ.Yakovukun "Turizm praktikasında müasir informasiya texnologiyalarının isifadə edilməsi" [4] və s. tədqiqatların qeyd edilməsi yerinə düşərdi.

---

[4] Артемова Е.И. Международный опыт управления в сфере продвижения и развития туризма. Научный журнал КубГау, №92(08), 2013 года, Бабкин А.В. Специальные виды туризма. Учебное пособие. Ростов-на-Дону. 2008, Балашов В. Развитие гастрономического туризма в московской области. "Проблемы и перспективы современного туризма": сборник работ по материалам Пятой международной очно-заочной научно-практической студенческой конференции (г.Тула, 20 ноября 2013 г.). Тула: 2013. S.19, Барчуков И.С. Методы научных исследований в туризме: учебное пособие для вузов. Изд.: «Академия», 2008.Вавилова Е.В. Основы международного туризма: Учебное пособие. М.: Гардарики, 2005.Воронкова В.Г. Развитие туризма как социального и культурного явления в условиях глобализации и кросс-культурной коммуникации. Научные записки Киевского университета туризма, экономики и права. Серия: философские науки. - 2010. - Выпуск 8. Глушко А.А., Сазыкин А.М. География туризма. © Издательство Дальневосточного Университета, Владивосток, 2002 г. Грдзелишвили Н.Ш. Туризм как фактор ускорения интеграционных процессов на евразийском пространстве. Практика интеграции. ЕЭИ — № 1 (22) февраль14.Ильина Е.Н. Туроперейтинг. организация деятельности. М., 2002,Зализняк Е.А. Региональный туризм:основные признаки и условия развития. Вестн. Волгогр. гос. ун-та. Сер. 3, Экон. Экол. 2011. № 2 (19).Красильщиков В.А. Мировые модернизации и судьбы страны. // Свободная мысль. 1999. № 1., Окружающая среда в Азербайджане: Глобальные проблемы и пути их решения. «Зеркало», Ср. , Мар. 14, 2007, Туризм: практика, проблемы, перспективы. - Октябрь. 2000. - № 10, Ахмадуллина Л.Р. Роль информационного обеспечения в развитии культурного туризма // Гуманитарные научные исследования. 2013. № 3 [Электронный ресурс]. URL: http://human.snauka.ru/2013/03/2534, Александрова А.Ю. Международный туризм. М.: "Аспект пресс", 2001, Гализдра А.С. Феномен туризма: методология исследования//Вестник Саратовского государственного технического университета. 2006. № Киселев М. М. Туризм и естествознание - философско-мировоззренческий аспект. Всеукраинский круглый стол "Философия туризма". - М., 2 002, Купряшин Г.П. Кризисы модернизации. - Кентавр, 1994, №3, Любивый, Я. В.Современное массовое сознание: Динамика и тенденции развития / Акад. наук Украины. Ин-т философии. Киев : Наукова думка, 1993,140 с.Международные экономические отношения. Экономика туризма. М.: Финансы и статистика, 2000. - 208 с.Пархоменко Т.С.

Müstəqilliyin əldə edilməsi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizmin elmi tədqiqi sahəsində də çoxsaylı tədqiqatların aparılması gündəmə gəldi. Azərbaycanda ictimai-humanitar elmlərin tədqiqat predmeti kimi turizm – yeni formalaşan sahələrdəndir. Dövlət siyasətinin müstəqil istiqaməti, miqyaslı ictimai-mədəni, kütləvi sahə kimi, həm də elmi-tədris və tədqiqat sahəsi kimi turizm ölkəmizdə müstəqillik əldə edildikdən sonra aktuallaşmağa başlamışdır. Eyni zamanda qeyd etmək istərdik ki, bu sahədə çoxşaxəli elmi tədqiqatların aparılması da son illərə təsadüf edir.

Bununla belə, turizmin elmi-tədrisi və tədqiqi sahəsində mövcud elmi ədəbiyyat, bu sahənin çoxdan tədqiq edildiyi xarici ölkələrlə müqayisədə yeni olsa da, bu sahədə boşluğun aradan qaldırılması istiqamətində ciddi işlərin görüldüyünə dəlalət edir.

Araşdırmaların gedişində yerli müəlliflərdən-S.Yeganlının "Turizm" və "Beynəlxalq turizm və Azərbaycan Respublikasında turizmin inkişafı", İ.Hüseynov və N.Əfəndiyevanın "Turizmin əsasları" dərs vəsaiti, F.Qurbanovun "Azərbaycanda turizmin inkişaf

---

Антропология туризма., Панасюкова Т.И. Развитие туризма в Азербайджане 2003-2013 гг. Дипломная работа. М.,2014.Прядкина Л.А., Репс В.Ф. Коммуникативная функция туризма: социокультурный аспект. Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология, культурология. Выпуск№ 1(113) / 2013.Путрик Ю.С. Социальная политика государства и ее реализация в области туризма в период 1992–2013 гг. 2013 — №2 Государство и гражданское общество: политика, экономика, правоРзаев М.Г. Туризм и современность: Нахчыванская Автономная Республика / М.Г. Рзаев, А. Х. Джаббаров. – Новосибирск. : Тахсил, -2011. 160 с. 1.Панасюкова Т.И. Развитие туризма в Азербайджане 2003-2013 гг. Дипломная работа. М.,2014.Прядкина Л.А., Репс В.Ф. Коммуникативная функция туризма: социокультурный аспект. Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология, культурология. Выпуск№ 1(113) / 2013.Путрик Ю.С. Социальная политика государства и ее реализация в области туризма в период 1992–2013 гг. 2013 — №2 Государство и гражданское общество: политика, экономика, правоРзаев М.Г. Туризм и современность: Нахчыванская Автономная Республика / М.Г. Рзаев, А. Х. Джаббаров. – Новосибирск. : Тахсил, -2011. 160 с.Туризм: практика, проблемы, перспективы. - Октябрь. 2000

problemləri", H.Soltanova və Ş.Hüseynovanın "Turizmin əsasları", B.Bilalovun "Turizmin menecmenti", "Turizmin tarixi" əsərləri, Məmmədov İ. "İnformasiya texnologiyaları qeyri-neft sektorunda ən prioritet sahəyə çevrilmişdir", M.Rzayev və A.Cabbarovun həmmüəllifləri olduları "Turizm və müasirlik: Naxçıvan Muxtar Respublikası", F.Abdullayevanın "Mədəni turizm: ilin bütün mövsümlərində", T.Əfəndiyev "E-turizmin Azərbaycandakı inkişaf istiqamətləri", Ə.Mürvətov "Azərbaycanda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır", V.Şıxəmmədov "Azərbaycanda turizmin inkişaf perspektivləri"[5] və digərlərinin ölkəmizdə yeni inkişaf edən turizm elmi ilə bağlı bir çox vacib məsələlərin tədqiqinə həsr edilmiş əsərlərinin işıq üzü gördüyü məlum olmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə çap edilmiş bir neçə kitab BMT-nin İnkişaf Proqramının Turizmin İnkişafı layihəsi çərçivəsində elmi ictimaiyyətə təqdim edilmişdir."Beynəlxalq turizmdə işlədilən termin və anlayışların izahlı lüğəti", "Beynəlxalq turizm hüququ", "Turizm sektorunda çalışanlar üçün məlumat kitabçası" və "Turizmin davamlı inkişafı. Yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait" kitabları bu qəbildəndir.

---

[5] Yeganlı S. "Turizm". Bakı: Təhsil nəşriyyatı, 2006., Еганлы С.Г. Международный туризм и развитие туризма в Азербайджанской Республике / С.Г. Еганлы, Э. М. Гаджиев. - Баку. : Элм, -2003. – 178 с., Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı: 2007, Qurbanov F.İ. Azərbaycanda turizmin inkişaf problemləri., . Bakı: "Adiloğlu" nəşriyyatı, 2007, Soltanova H.B. və Hüseynova Ş.H.Turizmin əsasları. Bakı: Mütərcim nəşriyyatı, 2007, Bilalov B.Ə. Turizmin menecmenti. –Baki, Mütərqim nəşriyyatı, 2005, Məmmədov İ. İnformasiya texnologiyaları qeyri-neft sektorunda ən prioritet sahəyə çevrilmişdir. xalqqazeti.com, Рзаев М.Г. Туризм и современность: Нахчыванская Автономная Республика / М.Г. Рзаев, А. Х. Джаббаров. – Новосибирск. : Тахсил, -2011., Abdullayeva F.Mədəni turizm: ilin bütün mövsümlərində. Mədəniyyət. 2010, 19 may,Əfəndiyev T. "E-turizmin Azərbaycandakı inkişaf istiqamətləri". "Azərbaycanda informasiya iqtisadiyyatı: nailiyyətlər, problemlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans materialları. Bakı, 22 May 2007-ci il.,Mürvətov Ə. Azərbaycanda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır. "Azərbaycan" qəzet, 7 may, 2009-cu il.Şıxəmmədov V. Azərbaycanda turizmin inkişaf perspektivləri. http://arxiv.az /az/xalqqazeti.com /354 74077 / Azerbaycanda +turizmin+ inkishaf+ perspektivleri

C.Məmmədov və S.Rəhimovun "Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti"[6] Azərbaycan və ingilis dillərində çap edilmişdir və lüğətidə 3 mindən artıq termin və anlayışın izahı verilmişdir. Ə.Əliyev və E.Aslanovun müəllifliyi ilə çap edilmiş "Beynəlxalq turizm hüququ" kitabı isə tələbələr üçün zəruri olan dərslik kimi təsdiq edilmişdir.

Mövzunun işlənmə dərəcəsindən göründüyü kimi, turizmin tətbiqi-elmi aspektlərinə, bu sahədə tədris və maarifçilik ədəbiyyatının, dövri nəşrlərin olmasına baxmayaraq, Azərbaycan ictimaiyyətşünaslığında turizmin cəmiyyətin sosial rifah halının yüksəldilməsinə təsirinin sosiologiya elmində sosial rifahla turizmin qarşılıqlı əlaqəsinin sosioloji və metodoloji əsasları hələlik tam əhatə edilməmişdir. Həmin əsasların konseptual izahı isə turizmin sosioloji aspektlərini araşdırmadan qeyri-mümkündür.

Yuxarıda qeyd olunan həm xarici, həm də ölkə sosioloji ədəbiyyatlarında cəmiyyətin rifah halının yüksəldilməsində turizmin rolu məsələsi olduqca zəif tədqiq edilmişdir. Bu baxımdan həm mövzunun aktuallığını, həm də sosioloji baxımdan zəif tədqiq olunmasını əsas götürərək tədqiqat araşdırmaları aparmağı qarşımıza məqsəd qoymuşuq.

**Tədqiqat işinin obyektini** - Azərbaycan Respublikasında cəmiyyətin sosial sahəsində və sosial rifaha təsiri xüsusiyyətlərinin turizmin inkişaf qanunauyğunluqlarının sosioloji aspektdə tədqiqi təşkil edir.

**Tədqiqatın predmetini** - Azərbaycan xalqının rifah halının yüksəldilməsində turizm amilinin yeri və rolunun sosioloji baxımdan təhlili təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Qeyd edilənlərdən çıxış edilərək, tədqiqat işinin başlıca məqsədi müstəqillik illərində Azərbaycan Respublikasında turizmin inkişafının, əhalinin həyat səviyyəsi və firavanlığı, sosial tərəqqisi ilə qarşılıqlı bağlılığını aşkara çıxarmaqdan ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqatda aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Cəmiyyətin rifah halının yüksəldilməsinə turizmin təsirinin sosial mahiyyətinə dair elmi baxışları araşdırmaq;
- „Sosial rifah" və „turizm" anlayışlarının sosioloji kateqoriya kimi tədqiqinin metodoloji əsaslarını müəyyən etmək;

---

[6] Məmmədov C., Rəhimov S. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı: Qanun, 2000.

- Azərbaycan cəmiyyətinin dünyagörüşündə və sosial ünsiyyətdə turizmin sosial rifaha təsirinin mahiyyətini üzə çıxarmaq;

- Azərbaycan cəmiyyətinin rifah halının yüksəldilməsində turizm amilinin sosial tərəqqinin yüksəldilməsinə təsiri xüsusiyyətlərini aşkar etmək;

- Azərbaycan cəmiyyətinin yeni mərhələsində turizmin inkişafı, sosial modernləşmə prosesləri və rifah göstəricilərinin qarşılıqlı dinamikasını vermək;

- Azərbaycan cəmiyyətinin rifah halının yüksəldilməsində turizmin inkişaf perspektivlərini müəyyən etmək.

Qeyd edilən məqsəd və vəzifələr işin strukturunu müəyyən etmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqat işinin nəzəri əsasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması ilə bağlı ideyaları, tədqiqat probleminə dair konseptual fikirləri, eləcə də problemlə bağlı Azərbaycanın və xarici ölkələrin tanınmış alimlərinin fundamental elmi tədqiqatları təşkil edir. Dissertasiyanın məqsəd və vəzifələrini yerinə yetirmək üçün istifadə edilən mənbələrə obyektivlik və tarixilik prinsipi əsasında yanaşılmışdır. Tədqiqatın metodoloji bazasını problemə sistemli yanaşma əsasında sosiologiya elminin xüsusi elmi metodları – tarixi, məntiqi, müqayisəli (komparativist), analiz, sintez, induksiya, deduksiya, sistemli yanaşma, antropoloji, fenomonoloji, kommunikativ və s. metodlar təşkil edir. İstifadə olunan çoxsaylı müasir ədəbiyyatın dərin elmi təhlilinə cəhd edilmişdir.

Azərbaycan dövlətinin turizmin inkişafı ilə bağlı qəbul etdiyi konsepsiya və strategiyalar, rəsmi sənədlər tədqiqatın metodoloji və faktoloji bazasını təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi**. İşin əsas elmi yeniliyi Azərbaycanda turizmin ölkənin rifah halı ilə qarşılıqlı təsiri məsələsinin və inkişafı perspektivlərinin ilk dəfə olaraq tədqiqata cəlb edilməsi ilə bağlıdır.

Dissertasiyada turizm hadisəsi yeni aspektdə - cəmiyyətimizdə baş verən, keyfiyyət dəyişiklikləri ilə müşayiət edilən sosial-mədəni, mənəvi transformasiya proseslərinin, əhalinin firavanlığıınn göstəricisi qismində ilk dəfə araşdrılaraq dəyərləndirilmişdir.

Dissertasiya işi müasir cəmiyyətin, sosial dövlətin ən mühüm dəyəri kimi rifah və onu təmin edən çoxsaylı amillərdən biri kimi turizm amili haqqında yeni təsəvvürlərin formalaşmasına və

mənimsənilməsinə imkan yaradır. Tədqiqatın elmi yenilikləri aşağıdakı konkret müddəalarda öz əksini tapmışdır:

- Turizmin sosioloji aspekdə tədiqiqinə diqqəti cəlb etməklə, dövlətimizin bu sahədə həyata keçirdiyi fəaliyyətin daha düzgün elmi dərkinə, eləcə də səmərəliliyinin artırımasına nail olmağa səy göstərilmişdir;
- Turizmin ölkəmizdə nisbətən araşdırılmış tətbiqi-kulturoloji aspektindən fərqli olaraq, mövzunun sosioloji tədqiqata ilk dəfə cəlb edilməsi özlüyündə aşağıdakı bir sıra müsbət nəticələrin əldə edilməsinə imkan yaratmışdır:
- tədqiqatda turizmlə bağlı anlayışlar bazası genişləndirilmişdir;
- ölkəmizin dinamik inkişaf etdiyi illər ərzində həyat səviyyəsinin yüksəlməsində turizmin rolu insan inkişafının göstəricisi kimi araşdırılmışdır;
- Azərbaycan həqiqətlərinin, cəmiyyət həyatının real inkişafının dünyaya çatdırılmasında daxili və xarici turizm imkanlarının səfərbər edilməsi yönündə dövlət siyasətinin nəticələri diqqətə çəkilmişdir.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti** onunla bağlıdır ki, mövzunun təhlili yaşadığımız dövrün tələbləri baxımından həm problemin elmi-nəzəri araşdırılması üçün, həm də, cəmiyyətdə reallaşdırılan praktiki-mədəni vəzifələr baxımından faydalı ola bilər. Araşdırma nəticəsində əldə edilmiş qənaət, nəticə, tövsiyə və təkliflər turizmlə bağlı elmi tədris kurslarında istifadə baxımından da əhəmiyyətlidir. Həmçinin, turizmin inkişafı ilə bağlı dövlətin sosial-mədəni inkişaf siyasəti, həyata keçiriləcək mütərəqqi islahatlar üçün gərəkli ola bilər. Tədqiqat işi sosioloji problem kimi turizmi araşdıran bir çox elm sahələrində çalışan mütəxəssislər üçün maraqlı ola bilər və turizmlə bağlı olan ixtisasların tədrisində, müvafiq dərs vəsaitlərinin hazırlanmasında yararlı ola bilər.

Tədqiqatın nəticələrindən dövlətin sosial siyasətində, turizmin inkişafı yönündə həm nəzəri, həm də praktiki baxımdan istifadə oluna, yeni yanaşmanın formalaşmasına istiqamət verə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

İşin əsas məzmunu müəllifin Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallarda dərc etdirdiyi müxtəlif məqalələrdə, həmçinin bir sıra elmi konfrans və seminarların materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.**

Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallıgı araşdırılır, onun işləmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, işin aprobasiyası və strukturu açıqlanır.

**"Sosial rifah" halının və "Turizmin" sosioloji kateqoriya kimi tədqiqnin elmi-nəzəri və metodoloji əsasları"** adlanan birinci fəslin **"Cəmiyyətin rifah halının yüksəldilməsinə turizmin təsirinin sosial mahiyyətinə dair elmi baxışlar"** adlı yarımfəsilində qeyd edilir ki, müasir anlamda turizmin tarixi təkamülü və perspektivlərinə qısa baxış onu göstərir ki, XVIII əsrdə və XIX əsrin ortalarınına qədər turizm elitar-fərdi xarakter daşımış, yalnız aristokrat dairələrə xas əyləncə forması olmuşdur. Bu zaman səyahətlər elitar mədəniyyətin ayrılmaz hissəsi kimi çıxış edirdi və təhsil almaq, müalicə olunmaq məqsədilə həyata keçirilirdi. XIX əsrdə sənayeləşmə və elmi-texnik inkişafı turizmin geniş vüsət almasına və yayılmasına təkan verdi.Turizm əsasən XIX əsrin ortalarından başlayaraq inkişaf etməyə başlamışdır. Həmin dövrə qədər fərdi gəzinti və səyahət məqsədini daşımış, müxtəlif ərazilərə, ölkələrə könüllü səfər edən adamlar "turist" adlandırılmışdır.

Hazırkı dövrdə əmtəəyə çevrilən kütləvi, yaxud sosial turizm qlobal dünya nizamının formalaşmasında ümumdünya əhəmiyyəti kəsb edir. Nəticədə insanların şüurunda fərqli mədəniyyətlərin mənimsənilməsi və tanınması xüsusiyyətləri əks olunur. Turizm mədəniyyətlərin mövcudluğunu qəbul edir, insanların qarşılıqlı fəaliyyətə və mədəni plüralizmə meylli olduqlarını göstərir. [7]

Turizmin elmi tədqiqi bu sahə ilə bağlı bir sıra anlayışlarla tanışlığı tələb edir. Onlardan tədqiq edilən mövzu ilə bağlı olan turizm fəaliyyəti, sosial turizm, turist-subyekt,turizm infrastrukturu, turizm resursları, turizm təhsil sistemi, özfəaliyyət turizmi, turizm kommunikasiyası və digər anlayışları diqqəti cəlb edir.Turizm fəaliyyəti

---

[7] Гализдра А.С. Феномен туризма в пространстве массовой культуры. Туризм и культурное наследие. Межвузовский сборник научных трудов.. s.12-13

–turistin səyahətin təşkili ilə bağlı (turoperator və turagentlik və s.) fəaliyyətdir.

Birinci fəslin ikinci yarımfəsili "**„Sosial rifah" və „turizm" anlayışlarının sosioloji kateqoriya kimi tədqiqinin metodoloji əsasları"** adlanır. XXI əsrin əvvəllərindən dünyada mövcud olan ictimai-iqtisadi vəziyyət turizm fenomenini cəmiyyətin inkişafının həlledici amillərindən biri kimi təhlil etməyi zəruri etmişdir. Turizmin əhəmiyyəti yalnız onun iqtisadiyyatın ən güclü sahələrindən biri olması ilə məhdudlaşmayıb, həm də onun insanın həyat fəaliyyətini və dünyagörüşünü formalaşdıran həlledici şərtlərdən biri olmasındadır.

XX əsrin ikinci yarısından etibarən ümumi metodoloji əsaslara malik olan və bir çox elmlərin turizmi tədqiq etməsinə imkan verən bitkin nəzəri sistem kimi turizmologiyanın yaradılması yönündə cəhdlər edilmişdir.Hazırkı dövrdə elmi dairələrdə turizmologiyanın ümumilikdə yeni ictimai-humanitar nəzəriyyəyə çevrildiyinə dair fikirlər yer almaqdadır.[8]

Turizmin sosioloji dərki onun hermenevtik (şərh və dərk etmək) əsasları ilə sıx bağlıdır. Turist səyahətlərində mədəni məkanlar, tarixi abidələr, müxtəlif xalqlara məxsus dəyərlər şərh, yaxud interpretasiya edilməklə dərk və qəbul edilir. Turist yalnız getdiyi yerlər haqda söhbətlərə qulaq asmır, həm də tarixi abidələri, memarlıq incilərini, təbiət gözəlliklərini mənimsəyir. Bu mənada hermenevtika insan varlığının fenomenologiyası kimi çıxış edir.

Mədəni simvolların hermenevtik izahı obyektiv olub, insan varlığının ontoloji xüsusiyyətlərini, yaxud mövcudluq şərtlərini açır. Bu şərtlər insanın ekzizstensional varlığı ilə bağlıdır. Başqa "bir dünyanı" dərk edən insan qarşısında çoxtərəfli mədəni mühit və yeni mədəni məkan açılır və onun varlığını müəyyən edir. Bu əsasda insanın mürəkkəb etik-psixoloji hisslər kompleksi yaranır. Bununla da turizm antropoloji mahiyyəti ilə insan şəxsiyyətinin formalaşmasına, onun peşəkarlıq xüsusiyyətlərinə təsir edir. Turist özünün cəmiyyətə, təbiətə və sivilizasiyaya bağlı olduğunu bir daha hiss edir.

Turizm insan dəyərlərinin reallşmasının səmərəli vasitəsi hesab edilir. Cəmiyyətin dəyərlər sistemi, onun qarşılıqlı təsiri turizmin sosioloji baxımdan tədqiqində mühüm istiqamətlərdən birini təşkil edir. Bir daha vurğulanmalıdır ki, turizmin hansı növündən və sahəsindən-

---

[8] Abdullayeva F.Mədəni turizm: ilin bütün mövsümlərində.Mədəniyyət. 2010, 19 may. S.22-23

işgüzar, təhsil, sosial, siyasi, məişət və s.-bəhs edilir edilsin,dəyərlər müasir insanın varlığının təməli kimi gündəlik praktikada və ünsiyyət prosesində münasibətlərin qurulmasının əsas mexanizmlərindən biri olaqda qalır.

**"Azərbaycan cəmiyyətinin dünyagörüşündə və sosial ünsiyyətində turizmin sosial rifaha təsirinin mahiyyəti"** adlanan üçüncü yarımfəsildə qeyd edilmişdir ki, cəmiyyətin, fərdin və şəxsiyyətin sosial tələbatları-əmək və məşğulluq, asudə vaxt, ünsiyyət, sosiallaşma v s. toplumun həyat fəaliyyətini təmin edir. Məhz müxtəlif tələbatların ödənilməsi bir çox halllarda turizm fəaliyyətinin təkanverici qüvvəsi kimi çıxış edir. Məlum olduğu kimi insanların başqalarını anlamaq və dərk etməyə yönəlmiş, məqsədyönlü xüsusiyyət daşıyan hərəkətləri kommunikativ fəallıq adlanır.

Azərbaycanda kommunikativ qarşılıqlı təsirlər şəxsi həyat təcrübəsi vasitəsi ilə cəmiyyətin sosial birliyinin formalaşmasına, insanlar və qruplararası inteqrasiyanın canlanmasına imkan verir. Turizm məhz bu baxımdan da, xalqlar, mədəniyyətlər, bütövlükdə toplumlar arasında etibar, həmrəylik, qarşlıqlı anlaşma münasibətlərinin bərqərar olduğu sahə kimi önəm daşıyır.

Ölkələr və toplumlar arasında getdikcə yüksələn qarşılıqlı münasibətlərin təzhürü və eyni zamanda mexanizmi kimi, turizm insanlar arasında həmrəylik və birliyin möhkəmləmnəsinə şərait yaradır. Həmçinin müasir dövrün qlobal probleminə çevrilməkdə olan özgələşmə meyllərinin qarşısını almağa xidmət edir. Turizm mütləq olaraq "qonaq və ev sahibi" arasında tanıma və dialoq məqamını nəzərdə tutduğu üçün insanların bir-biri haqda məlumat və biliklərinin dərinləşməsini, anlaşmasını şərtləndirir.

Qloballaşan dünyada turizmin artan nüfuzu, müasir cəmiyyətin həyatında onun iqtisadi, siyasi və sosial əhəmiyyəti dünya ölkələrinin əksəriyyətində elmi ictimaiyyət tərəfindən yekdilliklə qəbul edilmişdir. Hazırda Azərbaycanda fəal turizm mübadiləsinə daha çox ictimai-iqtisadi və mədəni inteqrasiya proseslərinin əhəmiyyətli tərkib hissəsi, beynəlxalq sosial- humanitar əməkdaşlığın inkişafının ayrılmaz istiqaməti kimi baxılır.

Tədqiqatın ikinci fəsli **"Azərbaycan cəmiyyətində turizmin sosial rifahla qarşılıqlı əlaqə, münasibət və təsiri mexanizmimin reallıqları və perespektivləri" adlanlr.** İkinci fəslin birinci yarımfəsli **"Azərbaycan cəmiyyətinin rifah halının yüksəldilməsində turizm amilinin sosial tərəqqinin sürətləndirilməsinə təsiri xüsusiyyətləri"** adlanır.

Azərbaycanın milli turizm siyasəti, sosial dövlət quruculuğu və cəmiyyətin firavan həyatının təmin edilməsinə yönəlmiş həyati vacib kursun ayrılmaz tərkib hissəsidir. Bu sahədə dünya dövlətlərinin təcrübəsi ilə müqayisədə qısa müddətdə möhtəşəm uğurların əldə edilməsi heç də ilk baxışda göründüyü qədər asan olmamışdır.

Respublikada milli turizm sektorunun inkişaf etdirilməsi və turizm ehtiyatlarından əhalinin sosial rifahı yönündə səmərəli istifadə edilməsi siyasətinin əsası bütün sahələrdə olduğu kimi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Eyni zamanda,müstəqilliyin ilk illərindən başlayaraq, paralel olaraq həm də sosial dövlət quruculuğunun həyata keçirilməsi,XXI yüzilliyin əvvəllərində dünyaya dinamik inkişafla səciyyələnən Azərbaycanın yeni dövlətçilik modelini təqdim etməyə imkan verdi. Yəni ölkəmizdə milli və sosial yönümlü dövlət quruculuğu sahəsində məhz həmin illərdə əldə edilən uğurlara söykənərək bu gün rifah cəmiyyəti quruculuğuna keçid alınmaqdadlr.

Məlum oldğu kimi, dövlət-cəmiyyətin həyatının təşkilinin sosial institutu olub, insanların ictimai tələbatlarını təmin edən, onların ümumi maraqlarını reallaşdıran; ictimai həyatın bütün sferalarına rəhbərlik edən və bunun üçün müxtəlif vasitələrdən, (o cümlədən məcburetmə mexanizmlərindən), istifadə edən siyasi hakimiyyətin əsas orqanıdır. Dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlərin bir çoxu sosial təminatın yüksək pilləsi olan sosial rifah dövləti qurmağı hədəf kimi qarşısına məqsəd qoymuş, öz konstitusiyalarında, qanunlarında təsbit etmişlər.

**“Cəmiyyətin inkişafının yeni mərhələsində turizm, sosial modernləşmə prosesləri və rifah göstəricilərinin qarşılıqlı dinamikası” adlı** ikinci yarımfəslində qeyd edilir ki, modernləşmə mərhələsində Azərbaycanda başlanan daxili islahatlar prosesi turizm sahəsindən də yan keçmədi. Turizm XX əsrin 90-cı illərinin sonlarından etibarən yeni xətlə və dövlət siyasətinin mühüm tərəflərindən biri kimi tərəqqi etməyə başladı. Belə ki, postsovet məkanı ölkələri ilə yeni mahiyyətli münasibətlərin qurulması xarici turizmin inkişafına təkan verdi, digər tərəfdən daxili turizm ölkənin infrastrukturunun, regionların yenidən qurulmasını və inkişafını tələb edirdi.

Azərbaycanda turizmin müxtəlif formaları-daxili və xarici turizm, sosial turizm, dini turizm və s. inkişaf edir. Müasir mərhələdə sosial

turizm problemləri iqtisadi və sosial tədqiqatlarda əsas yeri tutur, belə ki, insan fəaliyyətinin bu forması istirahət, azad hərəkət etmək, sağlamlığın müdafiəsi hüquqlarını, aztəminatlı vətəndaşların reabilitasiyasını təmin etməyə qadirdir.

Sosial turizm müxtəlif kateqoriyalı insanları – tələbələri, təqaüdçüləri, əlilləri, müharibə və əmək veteranlarını əhatə edir. Bununla əlaqədar olaraq, turizmin bu formasında aparılan dəyişikliklərin bütövlükdə cəmiyyət, o cümlədən iqtisadiyyat üçün əhəmiyyətini qiymətləndirmək çətindir. Belə ki, aztəminatlı vətəndaşların ictimai inteqrasiyası, onların reabilitasiyası, onların sosial müdafiəsi və dəstəklənməsi, onların istirahət, turizm, sağlamlığı bərpası və s. xüsusi əhəmiyyət kəsb edir. Məhz xeyriyyəçilik fəaliyyəti ödəmə qabiliyyəti aşağı olan vətəndaşlar üçün bir çox sosial əhəmiyyətli nemətləri əlçatan edir. Beləliklə, turizmin müasir inkişaf mərhələsi kütləvi turizm hərəkatının, onun dünya iqtisadiyyatındakı rolunun, turizm marşrutlarının coğrafiyasının sürətlə genişlənməsi, bu prosesin sosial yönümünün güclənməsi və beləliklə də insanın istirahət, azad hərəkət etməksağlamlığın müdafiəsi, vətəndaşların reabilitasiyası və s. ilə xarakterizə olunur. Bu dəyişikliklərin əsas amilləri əhalinin həyat səviyyəsinin yüksəlməsi, ödənişli məzuniyyətlər sisteminin inkişafı, turizmə qoyulan sərmayələrin artması, nəqliyyat şəbəkələrinin genişlənməsi və aşağı qiymətlə yol üçün bilet almaq imkanlarının yaradılmasıaztəminatlı vətəndaşların sosial müdafiəsi ilə bağlı cəmiyyətin psixologiyasının dəyişməsi və s. bağlıdır.[9]

"**Cəmiyyətin rifah halının yüksəldilməsində turizmin inkişaf perspektivlərinin əsas istiqamətləri**" adlanan ikinci fəslin üçüncü yarımfəslində qeyd edilir ki, turizmin inkişafı Azərbaycanda xüsusi əhəmiyyət daşıyır, bu, bir tərəfdən iqtisadiyyatda alternativ sahələrin inkişafı, digər tərəfdən dövlət büdcəsi üçün yeni gəlir mənbələrinin açılması deməkdir. Belə ki, son illərdə xarici turizmdən əldə edilən gəlirlərin neft sənayesindən daha çox olduğu məlumdur. Ölkədə turizm sahəsinin inkişafı bir tərəfdən ölkənin iqtisadi tərəqqisinə, regionlarda kiçik şəhərlərin inkişafına, sosial infrastrukturun təkmilləşdirilməsinə, digər tərəfdən əhalinin rifah halının yüksəldilməsinə, ehtiyacı olan təbəqələrin müalicə və turizmin digər sosial xidmətlərilə bağlı tələbatlarının təmin edilməsinə yönəlir.

Ölkəmizdə turizmin inkişafı üzrə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" uğurla

---

[9] Купряшин Г.П. Кризисы модернизации. - Кентавр, 1994, №3, s119-126

icra olundu. Fundamental mahiyyət kəsb edən bu proqram çərçivəsində Azərbaycanda turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər daha geniş və sistemli xarakter aldı. 2011-ci ilin "Turizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncamının da bu sahədə əldə edilən uğurlara böyük təsiri olmuşdur.

Prezident İlham Əliyev Siyəzən rayonunda yeni turizm obyektinin açılışında etdiyi nitqində qeyd etmişdir: "Azərbaycanın bugünkü inkişafı artıq enerji resurslarından yox, qeyri-neft sektorundan asılıdır. Bu səbəbdən dövlət turizm, aqrar-sənaye kompleksi kimi sferalara xüsusi diqqət göstərəcək. Bizim üçün nefti və qazı bir kənara qoymalı, ümumiyyətlə onları unutmalıyıq. Gün gələcək ki, dünya bazarlarında neftin kəskin ucuzlaşması bizim üçün heç bir əhəmiyyət kəsb etməyəcək. Ona görə ki, sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları Azərbaycanda inkişaf edir və daha da yüksək templərlə inkişaf etməlidir. Turizmin inkişafında infrastruktur mühüm əhəmiyyət kəsb edir. Ölkənin şəhərlərində Bakıdakı kimi müasir infrastrukturun yaradılması vacibdir."

Artıq dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünün astanasinda olan arxada qoyan Azərbaycan Respublikasında sosial-iqtisadi modernləşməyə əsaslanmaqla yüksək əzmkarlıqla və yaradıcılıqla həyata keçirilən inkişaf strategiyası bütün sahələrdə səmərəli nəticələrini göstərir.

Dissertasiyanın nəticə hissəsində göstərilir ki, araşdırmaya əsas verən səbəblər kimi qeyd edilmişdir ki, qloballaşma müasir dünya inkişafının başlıca meyli kimi, bir çox xalqlar və ölkələr qarşısına ciddi çağırışlar irəli sürmüşür. Onlara düzgün cavablar verilməsi Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin, ilk növbədə isə elmi ictimaiyyətin vəzifəsidir. Turizm sahəsinin dünyadakı inkişaf səviyyəsinə və standartlarına, qabaqcıl təcrübəyə uyğun inkişf etdirilməsi, ölkədə turizm sektorunun tərəqqisi uçun elmi əsaslara söykənən təklif və tövsiyyələrin təqdim edilməsi çoxsaylı sosial elmlər tərəfindən tədqiq edilən bu sahənin sosioloji prizmadan da baxılmasına zərurət yaratmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşagıdakı elmi əsərlərində öz əksini tapmışdır.**

1.Azərbaycanın sosial-iqtisadi inkişafına turizmin təsiri.// "Sivilizasiya", Bakı Avrasiya Univesiteti, №-, 2014. səh.181 – 186

2. Fərmayılov A.H. Turizmin inkişafı Azərbaycan xalqınını sosial rifahınını yüksəldilməsi aspektində. //“Strateji təhlil” №-1(12) Bakı, 2015. səh.135 – 151.

3.Turizmin tədqiqinin nəzəri-fəlsəfi əsasları//“Elmi əsərlər”, Azərbaycan Milli Elmlər Akademiyasınını Fəlsəfə və Hüquq İnstitutu , №-1(24) Bakı, 2015. səh.80 – 86.

4. Social economic prospects for the development of tourism in Azerbaijan //“Proceedings of young scientists”, Ministry of Youth and Sport of Azerbaijan Republic Azerbaijan Young Scientists, Pos-graduates and Masters Union, №-13/2016. pp 108 – 117.

5.Туризм как фактор повышения уровня экономического благосостояния общества.// Научно-практический журнал «Актуальные проблемы философии и социологии» , Национальный Университет «Одесская Юридическая Академия, Выпуск 11, 2016. ст.114-118.

## АНАР ГУМБАТ ОГЛЫ ФАРМАИЛОВ

# РОЛЬ ТУРИЗМА В ПОВЫШЕНИИ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА

## Резюме

Диссертация посвящена исследованию роли туризма в повышении социального благосостояния азербайджанского общества.

Во введении выявлена актуальность, степень изученности проблемы, определены объект и предмет исследования, его цели и задачи, а также отмечены использованные в работе источники.

В первой главе, «Научно-теоретические и методологические основы исследования «социального благосостояния» и «туризма» как социальной категории», проанализированы научные подходы к оценке социальной значимости воздействия туризма на рост благосостояния общества, методологические основы изучения социального благосостояния и туризма как социологических категорий, а также сущность влияния туризма на благосостояние в мировоззрении и социальной коммуникации азербайджанского общества.

Во второй главе, «Реалии и перспективы механизма взаимоотношений, взаимовлияния и взаимосвязи туризма с развитием социального благосостояния в азербайджанском обществе», исследуются специфика воздействия фактора туризма на рост социального благосостояния азербайджанского общества, динамика взаимоотношений туризма и процессов социальной модернизации, а также основные перспективы развития сферы туризма и его влияния на рост благосостояния азербайджанского общества.

В заключении предложены основные выводы диссертационного исследования. Здесь отмечается, что основная причина обращения автора к данной проблеме заключается в том, что глобализация, как главная тенденция современного мирового развития, поставила многие народы и страны, включая Азербайджан, перед серьезными вызовами. Поиск ответов и решений – обязанность всех слоёв азербайджанского общества и, в первую очередь, научного сообщества.

**ANAR HUMBAT FARMAILOV**

# THE ROLE OF TOURISM IN IMPROVING WELFARE OF THE AZERBAIJANI SOCIETY


## Abstract

The dissertation studies the role of tourism in improving the welfare of the Azerbaijani society.

The **Introduction** reveals the topicality, the degree of study of the problem, the object and subject of the research, its goals and objectives, and sources used in the work.

The first chapter, **Scientific-Theoretical and Methodological Foundations of the Study of "Social Welfare" and "Tourism" as Social Categories**, analyzes the scientific approaches to assessing the social significance of the impact of tourism on the growth of society's welfare, the methodological foundations for studying social welfare and tourism as sociological categories, and the essence of the influence of tourism on welfare in the worldview and social communication of the Azerbaijani society.

The second chapter, **Realities and Prospects of the Mechanism of Interrelations and Interactions of Tourism with the Development of Social Welfare in the Azerbaijani Society**, deals with the specifics of the tourism's influence on the growth of the social well-being of the Azerbaijani society, the dynamics of mutual relations of tourism and social modernization processes, and the main prospects for the development of the tourism sphere and its impact on the welfare of the Azerbaijani society.

In the **Conclusion**, the main findings of the research are proposed. The author notes that the main reason for his address to this problem is that globalization, as the main trend in the contemporary world development, has put many nations, including Azerbaijan, in the face of serious challenges. The search for answers and solutions is the responsibility of all layers of the Azerbaijani society and, first and foremost, of the scientific community.

Avtoreferat AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

***На правах рукописи***

**АНАР ГУМБАТ ОГЛЫ ФАРМАИЛОВ**

# РОЛЬ ТУРИЗМА В ПОВЫШЕНИИ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА

**Специальность: 630701 – Социальные изменения и развитие**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по социологии**

**Баку – 2018**